**DIŞ İMPLANTI CƏRRAHİYYƏSİNDƏN SONRA TƏLİMAT**

**1. ƏMƏLİYYAT GÜNÜ**

**BİRİNCİ SAAT:** Əməliyyat olunmuş nahiyəyə qoyulan tənzif tamponları ehtiyatla, lakin möhkəm şəkildə dişinizlə sıxın və əmin olun ki, onlar yerindədir. Qanaxma nəzarət altında olmadığı təqdirdə, ilk bir saat ərzində onları dəyişməyin. Bir saatdan sonra, tamponlar ehmalca götürülə bilər. Qanaxma çox olarsa, əməliyyat olunmuş nahiyənin növbəti 30 dəqiqə ərzində sıxılmasını təmin edə bilmək üçün, həmin nahiyəyə lazımi qədər yeni tənzif yerləşdirin. Sonradan, lazım gələrsə tənzif dəyişdirilə bilər (əsasən hər 30-45 dəqiqədən bir). Tənzifi qaynanmış su ilə islatmak və rahat yerləşdirilə bilməsi üçün açıq şəkildə yerləşdirmək daha yaxşıdır.

**XÜSUSİ DİQQƏT:** Bu gün əməliyyat olunmuş nahiyəyə toxunmayın. Ağzınızı möhkəm yaxalamayın və nahiyəni hər hansı əşya ilə yoxlamağa çalışmayın. Dişlərinizi yüngülcə fırçalaya bilərsiniz. Siqaret çəkmək, yaranın sağalma prosesini ləngidəcək ki, bu da narahatçılığın və diş çəkimi sonrası alveolit riskinin artmasına səbəb olacaq.

**AĞIZ BOŞLUĞUNUN GİGİYENASI:** Ağız boşluğunu təmiz saxlamaq olduqca vacibdir. Əməliyyat günü dişlərinizi fırçalamalısınız, lakin, əməliyyat olunmuş nahiyəni fırçalayarkən ehtiyatlı olun. Azacıq qanama olarsa, əməliyyatdan 24 saat sonra ağzınızı duzlu su ilə yaxalaya bilərsiniz (1 xörək qaşığı duz ilə 200 qr qaynanmış ılıq su). Ağzınızı yüngülcə yaxalayıb suyu qaba boşaldın. Ağız gündə 2-3 dəfə, xüsusilə də yeməkdən sonra yaxalanmalıdır.

**HƏRƏKƏT:** Əməliyyatdan sonrakı birinci gün yataq rejimində keçməlidir. Əyilmək, ağır əşya qaldırmaq və gərgin işlə məşğul olmaq qanaxmanın güclənməsinə, şişmə və ağrıya səbəb ola bilər. Uzanmış vəziyyətdə olduqda, ayağa qalxarkən ehtiyatlı olun. Qəfil durduqda, yüngül başgicəllənmə hiss edə bilərsiniz. Müntəzəm olaraq idmanla məşğul olursunuzsa, bilməlisiniz ki, bu dövr ərzində sizin normal maye və kalori qəbulunuz azalacaq. Əməliyyatdan sonrakı müddətdə idmanla məşğul olmaq qanaxmanın güclənməsinə, şişmə və narahatçılığa səbəb ola bilər. Əməliyyatdan sonrakı 3-4 gün ərzində idmanla məşğul olmaq olmaz.

**İFRAZAT:** Əməliyyatdan sonra qanaxma olacaq, 24-48 saat ərzində qanın ifraz olması heç də qeyri-adi hal deyil. Yadda saxlayın ki, ağız boşluğundan axan qanlı ifrazatın az hissəsini qan, çox hissəsini isə ağız suyu təşkil edir. Həmin nahiyəyə tənzif tampon qoymaq və onu diş ilə möhkəm sıxmaq qanaxmanın qarşısını alacaq. İfrazat davam edərsə, hər 30-45 dəqiqədən bir tənzifi dəyişin.

**DAVAMLI QANAXMA:** Qanaxma güclü olmamalıdır. Əgər olarsa, bu o deməkdir ki, tampon dişlərin arasına yapışıb və əməliyyat olunmuş nahiyəyə təzyiq göstərə bilmir. Tamponların yerini dəyişməyə çalışın. Dik və ya dirsəklənmiş vəziyyətdə oturarkən qanaxma davam edərsə və ya yenidən başlayarsa fiziki işlərdən uzaq durun, buzlu tamponlardan istifadə edin, 1 saat ərzində tənzifi və ya 30 dəqiqə ərzində nəm

*Ünvan:* Adil İsgəndərov küçəsi 4, AZ1000, Bakı, Azərbaycan
*Telefon:* +99412 492-08-44 / *Mobil:* +99450 378-97-20
*Email:* info@drsmiles.az / *Web:* www.drsmiles.az

çay paketini dişlərinizin arasında sıxıb saxlayın. Çay yarpaqlarının tərkibində olan aş  qanın laxtalanmasına kömək edir. Qanaxmaya nəzarət mümkün olmadıqda, xahiş edirik klinikamıza müraciət edin.

**ŞİŞMƏ:** Əməliyyatdan sonra şişmə normal hesab olunur və maksimum 2-3gün davam edir. Soyuq tampondan və ya buz kisəciyindən istifadə etdikdə və ya dondurulmuş noxudu dəsmalın arasına qoyub əməliyyat olunmuş nahiyəyə yaxın yanağa möhkəm sıxdıqda şişkinlik azala bilər. Bu prosedur, əməliyyatdan sonrakı ilk 2 (iki) saat ərzində iyirmi dəqiqədən bir təkrarlanmalıdır. Əgər sizə şişmə əleyhinə hər hansı preparat məsləhət görülübsə, onu təyin olunduğu qaydada qəbul edin.

**AĞRI:** Təəssüf ki, ağız boşluğunda aparılan cərrahi əməliyyatların əksəriyyəti müəyyən dərəcədə narahatçılıqla müşayiət olunur. Adətən ağrıkəsici dərmanlar yazılır. Əgər siz ilk həbi anesteziyanın təsiri itməzdən əvvəl qəbul etsəniz, yaranan hər hansı narahatçılığa qarşı daha yaxşı tab gətirə biləcəksiniz. Bəzi xəstələr güclü ağrıkəsicilərin ürəkbulanmaya səbəb olduğundan şikayətlənirlər, lakin hər həbi içməzdən öncə az miqdarda qida qəbul etsəniz ürəkbulanma ehtimalı azalacaq. Ağrıkəsicilərin effekti fərdə görə dəyişir. İlk ağrıkəsicini içdikdən sonra kifayət qədər rahatlıq hiss edə bilməsəniz, əlavə olaraq, tərkibində analgezik olan aspirin və ya İbuprofen qəbul edə bilərsiniz.  Hətta bəzi xəstələr iki həbin birdən qəbul olunmasını tələb edə bilərlər. Yadda saxlayın ki, kəskin ağrı adətən keyimə keçdikdən sonra altı saat ərzində davam edir; bu müddət keçdikdən sonra sizin dərmana olan ehtiyacınız azalmalıdır. Əgər siz qısa intervalla normadan artıq ağrıkəsici qəbul edirsinizsə, xahiş edirik klinikamıza zəng vurun.

**PƏHRİZ:** Rahatlıqla yeyə biləcəyiniz qidalar qəbul edin. İsti qida vasitələrindən son dərəcə uzaq durun. Əməliyyatdan sonrakı bir neçə gün ərzində diş çöpündən istifadə etməyin. Qəti surətdə tələb olunmasa da, məsləhət görülür ki, ilk günlərdə duru və püre halında olan qidalar (sup, pudinq, yoqurt, südlü kokteyl və s.) qəbul olunsun. Dilin hissiyyatı bərpa olmayana qədər qidanı çeynəməyin. Əməliyyat olunmuş nahiyəyə yapışa biləcək düyü, fındıq, günəbaxan tumu, popkorn və s. kimi ərzaqların istifadəsindən çəkinmək məsləhət görülür. Bir neçə gün keçdikdən sonra, tədricən bərk qidalara keçə bilərsiniz. Lakin qidalanma mütləqdir. Müntəzəm şəkildə qidalandıqda özünüzü daha yaxşı hiss edəcəksiniz, qüvvətlənəcəksiniz, narahatçılıq hissi azalacaq və daha tez sağalacaqsınız. Əgər siz diabet xəstəsisinizsə, normal qaydada qidalanın və həkimin verdiyi təlimatlara əməl edin.

**ÜRƏKBULANMA:** Qanın udulması, diskomfort, anesteziya və ya ağrıkəsici dərmanlar səbəbindən ürəkbulanma və qusma baş verə bilər. Əməliyyat sonrası ürəkbulanma adətən tənzimlənə bilir və zəncəfilli çay içdikdə çox vaxt yaxşı təsir göstərir. Duzlu krekerlərdən də istifadə oluna bilər. Ürəkbulanma davam edərsə, ağrıkəsicinin istifadəsini dayandırın və həmin preparatı başqa növ və dozada olan ağrıkəsici ilə əvəz edin. Bütün bunlara baxmayaraq ürəkbulanma yenə də davam edərsə, klinikamıza zəng vurun.

## 2. İKİNCİ VƏ ÜÇÜNCÜ GÜN ÜÇÜN TƏLİMATLAR

**AĞIZ YAXALAMA:** Əməliyyatdan sonra ağız boşluğunu təmiz saxlamaq olduqca önəmlidir. 1/4 xörək qaşığı duzu 200 qr qaynanmış ılıq suda həll edin və bir fincan suyu beş dəqiqə ərzində hissə-hisə istifadə edərək ağzınızı yüngülcə yaxalayın. Yaxalamanı gün ərzində iki-üç dəfədən az olmayaraq, istədiyiniz qədər təkrarlaya bilərsiniz.

**FIRÇALAMA:** Əməliyyatdan sonra, mümkün qədər tez bir zamanda ağız boşluğunun gigiyenası ilə məşğul olmağa başlayın. Ağrı və şişkinlik sərt fırçalamaya mane ola bilər, lakin, dişlərin sizə rahat olan formada təmizlənməsi son dərəcə mühümdür. Yaranın sürətlə sağalması üçün, ətraf hissələrin təmiz saxlanması zəruridir.

**SAĞALMA PROSESİ:** İmplant qoyulduqdan sonra normal sağalma prosesi aşağıdakı kimi olmalıdır: əməliyyatdan sonrakı ilk iki gün ümumilikdə ən narahat gün kimi qeydə alınır və adətən şişkinliklə müşayiət olunur. Üçüncü gün özünüzü bir qədər rahat hiss edəcəksiniz və şişkinliyin qalmasına baxmayaraq əhəmiyyətli pəhrizə başlaya bilərsiniz. Əməliyyatdan sonrakı digər mərhələdə tədrici və sabit sağalma müşahidə olunmalıdır. Davamlı sağalma hiss etmədikdə, klinikamıza zəng vurmanız xahiş olunur.

**RƏNG DƏYİŞİKLİYİ VƏ YA FIRÇALAMA:** qara, mavi, yaşıl və ya sarı rəng dəyişikliyi toxuma altı zədələnmə nəticəndə əmələ gəlir. Bu vəziyyət normal hesab olunur və əməliyyatdan 2-3 gün sonra müşahidə edilir. Əməliyyatdan 36 sonra, həmin nahiyəyə qoyulmuş kompres rəng dəyişikliyinin aradan qalxmasını tezləşdirə bilər.

**İTİ KƏNARLAR:** Əməliyyat olunmuş nahiyələrdə bərk və ya iti kənarlar hiss edirsinizsə, bu yəqin ki, çəkilmiş dişlərə dayaq olan sümük divarlardır. Bəzən kiçik sümük talaşalar növbəti həftə ərzində xaricə çıxa bilir. Onlar hər hansı narahatçılığa səbəb olduqda, klinikamıza zəng vurmanız xahiş olunur.

**DODAQLARIN QURUMASI:** Ağzınızın küncləri dartınırsa onlar quruya və çatlaya bilər. Dodaqlarınızı Vazelin məlhəmi ilə nəm saxlamağa çalışın.

**BOĞAZ AĞRISI:** Əməliyyatdan sonra qeyr-adi hal hesab olunmur. Əzələlər şişir və ağrılı udqunmaya gətirib çıxarır. 2-3 gün ərzində özbaşına keçməlidir.

**ÇƏNƏ ƏZƏLƏLƏRİNİN GƏRİLMƏSİ:** Əməliyyatdan sonrakı bir neçə gün ərzində ağızın geniş açılmasına maneçilik törədə bilər. Əməliyyat sonrası normal vəziyyət hesab olunur və əməliyyatdan sonra bir həftə ərzində aradan qalxır. Bu əzələlərin dartınması problemin həll olunmasını tezləşdirə bilər.

*Sizin vəziyyətiniz fərdidir, belə ki, iki ağız eyni ola bilməz. Dostlarınızın xoş niyyətli məsləhətlərinə qulaq asmayın. Probleminizi effektiv surətdə həll edə biləcək şəxslə müzakirə edin.*

*Ünvan:* Adil İsgəndərov küçəsi 4, AZ1000, Bakı, Azərbaycan
*Telefon:* +99412 492-08-44 / *Mobil:* +99450 378-97-20
*Email:* info@drsmiles.az / *Web:* www.drsmiles.az